

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 220 (23.862)

26 noyabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Rusiya Federasiyasının Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub və əlaqələrimizin inkişafında humanitar sferada, o cümlədən elmi sahədə əməkdaşlığın rolu vurğulanıb. Bu sahədə əməkdaşlığımızın zəngin tarixə malik olduğu bildirilib və müasir dövrdə bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəminə toxunulub. Rusiya Federasiyasının Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin səfərinin elmi əməkdaşlıq sahəsində əlaqələrin perspektivlərinin müzakirəsinə və daha da genişləndirilməsinə töhfə verəcəyi qeyd edilib.

Aleksandr Sergeyev Rusiya Federasiyasının Elmlər Akademiyasının xatirə medalını Prezident İlham Əliyevə təqdim edib.

## 2021-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2021-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 355 milyon 837 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 5097 manata çatmışdır.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 922 milyon 291 min 600 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2021-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 869 milyon 785 min 700 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 824 milyon 112 min 200 manatı və ya 94,7 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2021-ci ilin yanvar-oktyabr aylarında 452 milyon 915 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 21677 ton, süd istehsalı 80767 ton olmuşdur. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 4, süd istehsalı isə 1,4 faiz artmışdır.

***

2021-ci ilin yanvar-oktyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 50 milyon 710 min 700 manat olmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 7,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 38 milyon 91 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,4 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2021-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 185 milyon 801 min manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 20,8 faiz çoxdur. Verilmiş kreditlərin 19 milyon 803 min 900 manatı və yaxud 10,7 faizi qısamüddətli, 165 milyon 997 min 100 manatı və yaxud 89,3 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 noyabr 2021-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 181891-ə çatmışdır ki, bunun da 170244-ü və ya 93,6 faizi aktiv hesablardır. 2021-ci ilin yanvar-oktyabr aylarında açılmış 37812 bank hesabının 37772-si aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 noyabr 2021-ci il tarixə 1501-ə çatdırılmışdır.

***

2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 545,3 manata çatdırılmışdır ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur.

***

1 oktyabr 2021-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1306 nəfər artaraq 462 min 716 nəfər olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Sahibkarlığın uğurlu forması – ailə təsərrüfatları

*Muxtar respublikada bölgələrin iqtisadi inkişafını şərtləndirən mühüm meyarlardan biri də ailə təsərrüfatlarının inkişaf etdirilməsidir. Bu gün muxtar respublikada kiçik və orta sahibkarlığın, ailə biznesinin və təsərrüfatların inkişafını təşviq etmək, eləcə də regional inkişafa töhfə vermək məqsədilə bir sıra mühüm layihələr icra olunur.*

Ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaq məqsədilə Sahibkarlığın İnkişafı





Fondu tərəfindən ailə təsərrüfatlarına dövlət maliyyə dəstəyi göstərilir. Cari ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən heyvandarlıq, arıçılıq, bağçılıq, limonçuluq təsərrüfatlarının, unlu-qənnadı məmulatların, süd məhsullarının istehsalı, meyvə-tərəvəzin konservləşdirilməsi, yabanı bitkilərin konservləşdirilməsi, meyvələrin qurudulması, kompost istehsalı sahəsinin yaradılması məqsədilə 72 ailə təsərrüfatına 1 milyon 76 min 700 manat dövlət maliyyə dəstəyi göstərilib, ailə təsərrüfatları 4500 ədəd 27 çeşiddə tara ilə təmin edilib.

Ailə təsərrüfatı sahiblərinə öz təsərrüfatlarını müxtəlif sahələrdə inkişaf etdirmələri məqsədilə noyabrın 17-də Şahbuz rayonunun Ağbulaq kəndində biznes layihələri təqdim olunub. Rayonun Ağbulaq, Gömür, Aşağı Qışlaq və Kolanı kəndlərinin ailə təsərrüfatı sahiblərinin iştirakı ilə keçirilən tədbirdə ailə təsərrüfatçılarına meyvə və tərəvəzlərin qurudulması, meyvə lavaşası, meyvə araqları, süd və arıçılıq məhsullarının, qızılgül mürəbbəsi və digər istehsal sahələrinin, həmçinin müxtəlif meyvə bağlarının salınması üçün 12 layihə təqdim olunub, layihələrin həyata keçirilməsi üçün görüləcək işlər, avadanlıqların alınıb gətirilməsi, məhsul istehsalı və satışının təşkili ilə bağlı məsələlər müzakirə olunub. Şahbuz rayonunun turizm bölgəsi olması və bir sıra kənd təsərrüfatı məhsullarının istehsalı baxımından daha da əlverişliliyi ailə təsərrüfatlarının inkişafına öz təsirini göstərir. Ona görə də təsərrüfat sahibləri dövlət dəstə-



yindən yararlanaraq bu sahədə fəaliyyətlərini daha da genişləndirməyə maraq göstərməli, istehsalın artırılması və çeşid müxtəlifliyinin daha çox olmasına önəm verməlidirlər.

Hazırladıqları məhsulları özlərinə məxsus brend adı altında satışa çıxarmaları ailə təsərrüfatlarının işlərini inkişaf etdirməyə, bazara yeni məhsullar təqdim etməyə daha da həvəsləndirir. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların tanıdılması, təşviqi və sərgisi məqsədilə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi salonunda 55 ailə təsərrüfatının 19 növdə 87 çeşiddə məhsulunun nümayişi təmin olunub. Şəhər və rayonlarımızda fəaliyyət göstərən ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması muxtar respublikada belə məhsulların çeşid və rəqabət qabiliyyətinin stimullaşdırılmasında, istehlakçıların ekoloji təmiz ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynayıb.

Ailə təsərrüfatlarının sayının artması istehsal olunan məhsulların satışını zərurətə çevirmiş, bu məqsədlə Naxçıvan şəhərindəki mərkəzi bazarda hər həftənin şənbə və bazar günləri ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satış yarmarkası təşkil olunmaqdadır.

Noyabrın 20-si və 21-i Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Ailə təsərrüfatı məhsulları" satış yarmarkasına 453 ailə təsərrüfatı tərəfindən 540 çeşiddə 41 mindən çox qablaşdırılmış məhsul çıxarılması da bu sahə ilə məşğul olan ailə təsərrüfatçılarının fəaliyyətinin genişləndirilməsinə, məhsullarının rəqabət qabiliyyətinin artırılmasına şərait yaradıb.

İstehsalın mühüm şərtlərindən biri keyfiyyət amilidir. Bu istiqamətdə ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların keyfiyyətinə mütəmadi olaraq nəzarət edilir. Bu məqsədlə cari ilin ötən dövrü ərzində ailə təsərrüfatlarında hazırlanan 268 halda məhsullardan orta nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında analizləri aparılıb, nümunələrin keyfiyyət və təhlükəsizlik göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən edilib.

*Bütün bunlar onu deməyə əsas verir ki, muxtar respublika iqtisadiyyatının bütün sahələrində dövlət dəstəyi ilə ailə təsərrüfatlarının formalaşmasına geniş şərait yaradılır, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırılır.*

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**



# İnsanların sağlamlığı dövlətin və cəmiyyətin sağlamlığıdır

***Azərbaycan səhiyyəsinin inkişafında misilsiz xidmətlər göstərən və xalqın sağlamlıq məsələlərinə qayğısını əsirgəməyən ulu öndər Heydər Əliyev insanların sağlamlığını dövlətin və cəmiyyətin sağlamlığı hesab edirdi. Dahi rəhbər "Sağlamlığımızın qeydinə sağlam ikən qalaq" prinsipinin təntənəsi naminə respublikamızda sağlamlıq zonaları və istirahət evlərinin yaradılmasına, abadlaşdırma işlərinin aparılmasına və mövcud səhiyyə ocaqlarının profilinin genişləndirilməsinə ciddi əhəmiyyət verirdi. Rayonlarda, xüsusən ucqar dağlıq və dağətəyi bölgələrdə səhiyyə xidmətlərinin təşkilinə xüsusi diqqət yetirilirdi.***

Ötən əsrin 70-ci illərinin əvvəllərində həmin rayonlarda ixtisaslı həkimlərin, xüsusən kardioloq, onkoloq, ginekoloq, ftiziatr, nevropatoloq, sanitar həkim və epidemioloqların, orta ixtisas təhsilli tibb işçilərinin çatışmazlığı kəskin hiss olunurdu. Bu problemin həlli üçün, ilk növbədə, Tibb İnstitutuna tələbə qəbulunun sayı artırılmış, ucqar yaşayış məntəqələrindən gələn abituriyentlər üçün güzəştlər tətbiq edilmişdi. Bu, bilavasitə dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü idi. Məhz bu təşəbbüsün sayəsində rayonların səhiyyə müəssisələrində kadr çatışmazlığı aradan qaldırılmışdır. O dövrdən etibarən ulu öndərin təşəbbüsü ilə hər il yüzlərlə gənc keçmiş Sovetlər İttifaqının ən mötəbər ali məktəblərində müxtəlif peşələr və ixtisaslar üzrə təhsil almağa göndərilməyə başlanılmışdı. Bu, gələcəyin kadr hazırlığının təmininə istiqamətlənmiş uzaqgörən siyasətin həyata keçirilməsi demək idi. Bu gün fəxrlə demək olar ki, Azərbaycanın milli tibb kadrları indi nəinki ölkəmizdə, hətta dünyanın bir sıra inkişaf etmiş xarici dövlətlərinin məşhur tibb müəssisələrində uğurla fəaliyyət göstərirlər.



Bu gün dövlət başçısı cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu səhiyyə sistemində də layiqincə davam etdirir. Ötən müddətdə səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibb xidmətinin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır. Regionlarda idman-sağlamlıq, diaqnostika müalicə mərkəzlərinin və bu qəbildən olan digər obyektlərin istifadəyə verilməsi artıq ənənə halını almışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır: ***"Biz artan iqtisadi imkanlarımızı, ilk növbədə, sosial sahənin inkişafına, o cümlədən səhiyyənin problemlərinin həllinə yönəltməliyik".***

Ulu öndərin səhiyyə sisteminin inkişafı istiqamətində müəyyənləşdirdiyi vəzifələr bu gün muxtar respublikamızda da uğurla yerinə yetirilir. Səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması muxtar respublikada dinamik xarakter alan genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsinə çevrilmişdir. Əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən çox mühüm islahatlar öz bəhrəsini verməkdədir. Son illərdə muxtar respublikada yüzlərlə səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialının sosial siyasətin icrasına, əhalinin sağlamlığına yönəldiyinin parlaq göstəricisidir. Naxçıvanda istifadəyə verilən səhiyyə müəssisələrinin bir çoxunun açılışlarında iştirak edən dövlət başçısı cənab İlham Əliyev muxtar respublikada uğurla həyata keçirilən səhiyyə islahatlarını yüksək qiymətləndirərək demişdir: ***"Yeni, gözəl xəstəxanaların açılışı artıq Naxçıvanda gözəl ənənəyə çevrilibdir. Onların hamısı yüksək keyfiyyətlə tikilib, yüksək standartlara cavab verir. Çox sevindirici haldır ki, bütün rayonlarda gözəl, yeni, müasir tibb ocaqları tikilir. Burada quraşdırılan avadanlıqlar ən yüksək səviyyəyə layiqdir. Həm həkimlər üçün, iş üçün gözəl şərait var, həm də xəstələrin müalicəsi üçün bütün şərait vardır. Bax budur, bugünkü Azərbaycanın inkişafı".***

İnsan sağlamlığı bütün dövrlər üçün cəmiyyətin ən qiymətli sərvəti hesab olunur. Məhz buna görə də insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi məqsədilə bu gün muxtar respublikada səhiyyə infrastrukturunun yenilənməsi, ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması da yalnız bir məqsədə – əhalinin sağlamlığının qorunmasına xidmət edir. Bu səbəbdən də dərman və tibbi ləvazimatlarla təchizat yaxşılaşdırılmış, ana və uşaqların, ahılların, bütövlükdə, əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunması əsas məsələyə çevrilmişdir.

Səhiyyə sistemi qarşısında qoyulan vəzifələrdən biri də budur ki, insanlar tibbi yardımı yerlərdə ala bilsinlər, hansısa müayinə və tibbi müdaxilə üçün Naxçıvan şəhərinə, başqa yerlərə getmək məcburiyyətində qalmasınlar. Artıq belə şərait yaradılmışdır. Rayon mərkəzi və kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulmuş, tibbi avadanlıqlarla təchiz edilmişdir.

Həyata keçirilən səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri də muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 mart tarixli "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsilə bağlı tədbirlər haqqında" Fərmanı muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi, hər bir vətəndaş üçün əlçatan olması baxımından mühüm əhəmiyyət daşıyır.

Səhiyyə sahəsində görülən işlər yalnız quruculuq tədbirləri ilə yekunlaşmır. Yüksəkixtisaslı həkim briqadalarının muxtar respublikaya dəvət edilməsi və aztəminatlı ailələrdən olan xəstələrin dövlət vəsaiti hesabına müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili işi də diqqət mərkəzində saxlanılır.

Səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ulu öndər Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi böyük yol keçmiş, muxtar respublikada ixtisaslı həkim hazırlığının əsası qoyulmuşdur. Ötən illərdə fakültədə tələbələrin təhsili üçün lazımi şərait yaradılmış, müasir xəstəxana istifadəyə verilmiş, muxtar respublikanın səhiyyə müəssisələrində auditoriyalar qurulmuşdur. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda 400-dən artıq tələbə təhsil alır ki, onların arasında xarici ölkə vətəndaşları da vardır. Bu da onu deməyə əsas verir ki, Tibb fakültəsinin kadr hazırlığı sahəsində beynəlxalq səviyyədə nüfuzu vardır. Tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün universitet xarici ölkə universitetləri ilə sıx əlaqələr qurmuşdur. Yarandığı dövrdə fakültədə yalnız Pediatriya ixtisası üzrə həkim hazırlanırdısa, bu gün Tibbi profilaktika, Müalicə işi, Əczaçılıq və Stomatologiya ixtisasları üzrə həkim, eləcə də rezident hazırlığı həyata keçirilir. Universitetin Tibb fakültəsinin nəzdində açılan, 2021-2022-ci tədris ili üçün tələbə qəbulu aparan Hərbi tibb ixtisası muxtar respublikada ali təhsilli tibbi kadr hazırlığı istiqamətində atılan mühüm addımdır. Ötən dövrdə fakültəni bitirmiş tələbələrdən bu gün səhiyyə müəssisələrində çalışanlar, ürək və digər cərrahi əməliyyatları uğurla həyata keçirənlər, həmçinin dünyanın bir çox ölkələrində də həkim kimi fəaliyyət göstərənlər var.

Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. İstər Tibb fakültəsinin, istərsə də Naxçıvan Tibb Kollecinin məzunları bu gün muxtar respublikada mürəkkəb cərrahi əməliyyatların aparılmasında iştirak edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Tibb fakültəsinin yeni binasının açılış mərasimində dediyi kimi: ***"Tibbi təhsilin məqsəd və vəzifələri, sadəcə, sistemli biliklərin verilməsi ilə məhdudlaşmamalıdır. Çünki həkim hazırlığında yalnız nəzəri biliklər kifayət etmir. Tələbələr muxtar respublikanın səhiyyə müəssisələrində və fakültənin xəstəxanasında təcrübələrə cəlb olunmalı, praktik dərslərə üstünlük verilməli, onlarda peşə vərdişləri formalaşdırılmalıdır".***

*Bu gün Tibb fakültəsində müasir tibbi texnologiyalar və elektron təhsil tətbiq olunur. Yaradılan bu şərait tələbələrin hərtərəfli yetişməsinə hesablanıb ki, bu da həkim kadrların hazırlığının müasir tələblər səviyyəsində aparılmasına imkan verəcəkdir. Gələcəyimizə göstərilən qayğı müəllimlərin, həkimlərin məsuliyyətini artırır. Biz müəllimlər də çalışacağıq ki, etimadı doğruldaq, daha səmərəli fəaliyyət göstərək. Təbii ki, Tibb fakültəsinin fəaliyyəti üçün yaradılan şərait ixtisaslı həkim hazırlığı ilə yanaşı, həm də insanlara göstərilən qayğıdır.*

**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin müəllimi, tibb üzrə fəlsəfə doktoru***

# Ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri müzakirə edilib

Şərur rayonunda 2020-2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrinin müzakirəsi keçirilib.

Tədbiri giriş sözü ilə açan Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova qeyd edib ki, muxtar respublikada təhsil sahəsində həyata keçirilən genişmiqyaslı və inkişafyönlü tədbirlər Şərur rayonunda ümumtəhsil məktəblərində şagirdlərin keyfiyyətli təhsil almasına, pedaqoji kollektivlərin əzmlə çalışmasına, bunun da nəticəsində yüksək nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin təhsilə göstərdiyi xüsusi diqqət və qayğıdan Şərur rayonunda yerləşən ümumtəhsil məktəblərinə də pay düşüb. Təkcə 2021-ci ilin ötən dövründə Şərur rayon Şəhriyar və Dərvişlər tam orta məktəblərinin infrastrukturu yenilənmişdir. Hazırda isə Çərçiboğan kənd tam orta məktəbində quruculuq işləri aparılır.

Vurğulanıb ki, Şərur Rayon Təhsil Şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin 2020-2021-ci tədris ili üzrə 472 məzunundan 428-i və ya məzunların 90,7 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmişdir. Onlardan 290-ı ali və orta ixtisas təhsili müəssisəsinə qəbul olmuşdur. 35 məzun imtahanlarda 500-700 bal arası nəticə göstərmişdir. Təhsildə qazandıqları nailiyyətlərə görə məzunlardan 2-si "Qızıl", 2-si "Gümüş" nişana, 3-ü isə fərqlənmə attestatına layiq görülmüşdür.

Rayon Təhsil Şöbəsinin əhatə etdiyi məktəblərin dördillik fəaliyyətinin müzakirəsi zamanı təhsil naziri qeyd edib ki, Axura, Çəmənli, Həmzəli, Şahbulaq və Şəhriyar kənd tam orta məktəblərinin məzunlarının hamısı ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Bununla yanaşı, Dərvişlər və Kürçülü kənd tam orta məktəbləri 85,7 faiz, Yengicə kənd tam orta məktəbi 84,6 faiz, Muğancıq-Mehrab, Qarahəsənli və Zeyvə kənd tam orta məktəbləri 83,3 faiz, Ələkli, Qorçulu və Tumaslı kənd tam orta məktəbləri 80 faiz, Şərur şəhər 2 nömrəli tam orta məktəb 78,6 faiz, Cəlilkənd, Diyadin və Gümüşlü kənd tam orta məktəbləri isə 75 faiz qəbul verərək ən yaxşı nəticə göstərən məktəblər olmuşdur. Təhsil naziri rayonda fəaliyyət göstərən 54 məktəbdən 18 məktəbin nəticəsinin yaxşı olduğunu bildirmiş, həmin məktəblərin kollektivlərinə təşəkkür etmişdir.

Sonda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən ötən tədris ilində keçirilən qəbul imtahanlarında ən yüksək nəticə göstərən məktəblərə diplomlar təqdim edilib.

***

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin pedaqoji kollektivi ilə birgə 2020-2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrinin müzakirəsi keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, bu gün muxtar respublikada təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər nəticəsində liseydə də tədrisin səviyyəsi yüksəlmiş, 2020-2021-ci tədris ilində liseyin şagirdlərindən 2-si respublika, 7-si isə muxtar respublika fənn olimpiadasının, 5-i respublika fənn müsabiqəsinin qalibi olmuşdur. 2020-2021-ci tədris ilində liseyin 33 məzunu olmuşdur. Məzunların hamısı ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak etmiş, onlardan 32-si və yaxud 97 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Məzunlarından 2-si imtahanlarda 500-700 bal arası nəticə göstərmişdir.

Liseyin direktoru Çingiz Rzayev çıxış edərək 2020-2021-ci tədris ilində liseydə görülən işlər haqqında məlumat verib.

Sonda liseyin kollektivinə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin diplomu təqdim edilib.

# *"Sabahın tədqiqatçıları-2022"* – şagirdlər alimlərlə birlikdə cari tədris ilində də elmi-tədqiqat aparacaqlar



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə "Sabahın tədqiqatçıları-2022" layihəsinə start verilib. Bununla bağlı şagirdlərlə görüş keçirilib.*

Tədbirdə "Sabahın tədqiqatçıları" layihəsinin əhəmiyyəti və layihə çərçivəsində görülən işlərdən danışan təhsil naziri Rəhman Məmmədov vurğulayıb ki, layihə çərçivəsində AMEA Naxçıvan Bölməsinin alimləri xüsusi istedad və qabiliyyəti ilə fərqlənən şagirdləri elmi himayəyə götürərək onlarla birgə Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyətli olan, ümumilikdə, 95 şagirdin iştirakı ilə 53 layihə üzrə tədqiqat aparılmışdır.

Bu günədək layihə iştirakçılarından 1-i Beynəlxalq müsabiqədə qazandığı uğura görə adı Gənc İstedadların "Qızıl kitabı"na yazılmış və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşdür. Layihənin digər iştirakçılarından 1-i isə "Sabahın alimləri" respublika müsabiqəsində III yerə layiq görülmüşdür. Bundan əlavə, beynəlxalq müsabiqələrdə 6 layihə I, 4 layihə II, 6 layihə isə III yerə layiq görülmüşdür.

Nazir qeyd edib ki, "Sabahın tədqiqatçıları" layihəsinin uğurlu tətbiqi üçün bu il də Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəbləri pilot məktəblər olaraq müəyyənləşdirilmiş, layihədə iştirak edəcək 50 şagird 5 istiqamət üzrə tədqiqat aparacaqlar.

Təqdimatda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, "Sabahın tədqiqatçıları" layihəsi qısa müddətdə icra olunmasına baxmayaraq, bir sıra uğurlar qazanmışdır. Tədqiqat aparılan layihələrin 30-dan çoxu beynəlxalq və respublika səviyyəli konfrans, tədbir və mətbuat orqanlarında işıqlandırılmışdır. Hətta həmin layihələrdən 1-i – Surə Rəhimovanın rəhbərlik etdiyi layihə "Sabahın alimləri" X Respublika müsabiqəsində uğur qazanaraq III yerə layiq görülmüşdür. Bundan əlavə, 15-dən artıq alimin rəhbərlik etdiyi layihələr müxtəlif müsabiqələrdə medal, diplom, sertifikat və fəxri fərmanlara layiq görülmüşdür.

Bioresurslar İnstitutunun Biokimyəvi tədqiqatlar laboratoriyasının rəhbəri, biologiya üzrə fəlsəfə doktoru Surə Rəhimova "Sabahın tədqiqatçıları" layihəsi "Uğur və vəzifələr", Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi, Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının sədri Gülxanım Orucovanın "Sabahın tədqiqatçıları" layihəsinin əhəmiyyəti və layihənin uğurları haqqında çıxışları dinlənilib.

Sonra videoçarx nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

"Şərq qapısı" – 100

# 100 yaşlı qəzet canlı tariximizdir



### *"Şərq qapısı" məktəbinin yetirmələrindən biri kimi...*

Balaca yaşlarımdan, hələ məktəbdə oxuyarkən müəllimimiz inşa yazmağı tapşıranda tükənməz sevgi ilə yazar, qələm və kağızdan heç ayrılmaq istəməzdim. Bu, heç olmasa həftədə, on gündə bir olardı. Qələm və kağız ən yaxın sirdaşım olmuşdu. Evimizdə qarşıma çıxan qəzetləri saatlarla oxumaqdan böyük zövq alar, efir qarşısında əyləşib, müxbirlərin hazırladıqları verilişlərə baxmaqdan yorulmazdım. Böyüyəndə jurnalist olmaq həvəsi ilə kökləmişdim düşüncələrimi. Lakin anamın ən böyük arzusu bacımla mənim müəllim peşəsinə yiyələnməyimiz idi. Nəhayət, anamın arzusu gerçəkləşdi, İbtidai təhsilin pedaqogikası və metodikası ixtisasına qəbul oldum. Belə bir deyim var: Sən saydığını say, görək fələk nə sayır. Niyyətim hara, mənzilim də ora oldu. Düz 14 il bundan əvvəl təhsil aldığım ali təhsil ocağından çıxıb evimizə deyil, "Şərq qapısı" redaksiyasına tərəf yollandım. Bu sahədə əldə etdiyim uğurların hər biri həyat hekayəmin başlanğıc səbəblərindən biri oldu. Mənim bu peşəyə olan vurğunluğum birə-beş artdı.

Yaxşı xatirimdədir. Doğma qəzetdə ilk məqaləm 2007-ci ilin mart ayının 16-sı dərc olundu. Qəzet səhifəsində imzamı görəndə dünyanın ən xoşbəxt insanı hesab etdim özümü. Axı təkcə muxtar respublikanın deyil, ölkəmizin ən yaşlı və tanınmış, qələm sahiblərindən ibarət güclü jurnalistlər məktəbi yaratmış kütləvi informasiya vasitəsi sayılan "Şərq qapısı" qəzetində yazılarımın dərc olunduğunu görmək çoxdankı arzum idi. Qeyri-ixtiyari həmin yazını qəzet səhifəsində dəfələrlə oxuyub, sonra təkrar qəzeti bükmüşdüm. Və elə o zaman anlamışdım ki, əgər bir insan gördüyü işi sevərəkdən edərsə, bütün çətinlikləri aşmağa hazır olar. Beləcə, günlər bir-birini əvəz etdikcə "Şərq qapısı" adlı məktəbdə "təhsil alanlar" sırasına mənim də adım yazıldı. Nə xoş mənə ki Muxtar Məmmədov, Səxavət Kəngərli, Cəfər Əliyev kimi peşələrinin vurğunu olan jurnalistlərlə bir yerdə çalışmaq nəsibim oldu. Müəyyən zaman kəsiyindən sonra ailə vəziyyətimlə əlaqədar "Şərq qapısı"ndakı müxbirlik fəaliyyətim başa çatsa da, bir jurnalist kimi həm "Şərq qapısı"nda, həm də digər qəzet və jurnallarda yazılarım dərc olunur.

### *Qocaman mətbu orqanın keçdiyi yol…*

Xalqımızın ümummilli lideri Heydər Əliyev "Şərq qapısı"ndan bəhs edərkən deyirdi: ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. Qəzetiniz o vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".*** Ulu öndərin bu fikirləri, ümumilikdə, milli mətbuatımıza verilən yüksək dəyərin əyani ifadəsidir. İnsanları maarifə çağıran, nura qərq edən, diyarımızın yaşadığı çətin və xoş günlərinin bələdçisinə çevrilən "Şərq qapısı" qəzeti muxtar respublikanın mətbuat tarixində böyük xidmətləri ilə seçilməkdədir. XX əsrin 90-cı illərinin əvvəllərində "Şərq qapısı" qəzeti müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından sonra "Şərq qapısı"nın həyatında yeni dövr başlanmış, 1990-1993-cü illərdə qəzet Azərbaycanın çoxsaylı mətbu orqanları arasında birinci olaraq ölkəmizin düşdüyü bəlalardan yeganə xilas yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görmüş, bu mövzuda yazılarla çıxış etmiş, muxtar respublikanın düşdüyü informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynamışdır. Ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra mətbuat orqanlarının fəaliyyətinin yaxşılaşdırılmasına göstərilən diqqət və qayğıdan "Şərq qapısı" da xeyli bəhrələnmiş, qəzetin maddi-texniki bazası gücləndirilmiş və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir. Doğma diyarımızın canlı tarixini yaşadan, düz bir əsr əvvəl – 1921-ci ilin payızında işıq üzü görən "Şərq qapısı"qəzetinin nəşrində çətinliklər də az deyildi. Ancaq o dövrdə bu qəzetdə çalışan ziyalılar heç bir çətinliyə baxmadan öz vəzifələrinin öhdəsindən gəlməyə çalışır və buna nail olurdular.

Qəzet həmin dövrdə muxtar respublikamızda fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur.

### *"Şərq qapısı"na göstərilən dövlət qayğısı və muxtar respublikada jurnalistikanın inkişafı...*

Qürur hissi ilə deyə bilərik ki, bu gün "Şərq qapısı" qəzeti yüksək dövlət qayğısı ilə əhatə olunub. Belə ki, 2010-cu ildə qəzet redaksiyası üçün yeni bina tikilib istifadəyə verilib və hər cür şərait yaradılıb. Redaksiya və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verildikdən sonra qəzetin rəngli nəşrinə başlanılıb. 2012-ci ildə isə qəzetin *www.serqqapisi.az* saytı istifadəyə verilib. Saytı dünyanın istənilən nöqtəsindən izləmək mümkündür. Qeyd edək ki, sayt qəzetin arxiv bazasını təşkil edir. Cəsarətlə və qürurla, demək olar ki, "Şərq qapısı" qəzeti Naxçıvanın tarixini və keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamə vəzifəsini uğurla yerinə yetirir. Qəzet bu gün də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir. "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunub, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncamı isə göstərilən qayğının daha bir ifadəsidir. Sərəncamda deyilir: *"1921-ci il noyabrın 9-da nəşrə başlayan qəzet Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynamışdır. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə qəzetin böyük formatda nəşri təmin edilmiş, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüş, 50 illik yubileyi qeyd olunmuşdur. 1990-1993-cü illərdə isə "Şərq qapısı" qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmış, informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizlərdən olmuşdur".*

Bir sözlə, muxtar respublikamızda jurnalistlərə göstərilən qayğı, jurnalistikanın inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, söz, mətbuat azadlığının təmin olunması hər birimizin qəlbini fərəhlə doldurur. Mətbuat dövrün, zamanın salnaməsi, güzgüsüdür. Ali Məclis Sədrinin sözləri ilə desək: ***"Mətbuat bu günümüzlə gələcəyimiz arasında həm də mənəvi bir körpüdür, bağdır".*** "Şərq qapısı" məktəbində formalaşan bir gənc olaraq bu gün qəzet səhifələrində muxtar respublikanın qaynar həyatı ilə bağlı reportajların, təhsil, səhiyyə, mədəniyyət, kənd təsərrüfatı və digər sahələrlə bağlı yazıları oxuduqca qol-qanad açıb uçuram. Qəzetdə işlədiyim dövrdə "Şərq qapısı" qəzetinin arxivdə saxlanılan nömrələrinin saralmış səhifələrindən bir vaxtlar naxçıvanlıların yaşadıqları ağrılı-acılı günlərlə bağlı xeyli yazı oxumuşam. Artıq qəzet səhifələrində gündən-günə müasirləşən, gözəlləşən, insana yaşamaq və yaratmaq əzmi bəxş edən yazılar oxuyuruq.

Yeri gəlmişkən, nə az, nə çox düz yüz ildir ki, keşməkeşli yol gələn, çətinliklərlə rastlaşsa da, yorulmayan doğma qəzet ötən il II Qarabağ müharibəsinə şahidlik etdi. Torpaqlarımızın düşməndən azad edilmə xəbərlərini, cənab Prezidentimizin müraciətlərini və digər silsilə yazıları öz oxucularının ünvanına tez bir zamanda yetirirdi.

*Bu gün qocaman mətbu orqanın 100 illik yubileyinin işığına yığışmışıq. Muxtar respublikada jurnalistikanın inkişafına hərtərəfli qayğı sayəsində, baş redaktorun yüksək jurnalist peşəkarlığı, yorulmaz səy və fədakarlığı nəticəsində kollektiv canla-başla çalışır, günün nəbzi ilə səsləşən materialları qəzet səhifəsində yerləşdirməkdə əzmkarlıq nümayiş etdirir. Böyük iradə, güc və zəhmət tələb edən qəzetin ərsəyə gəlməsində birlik olub çalışan kollektivə uğurlar diləyir, doğma qəzet, yubileyin mübarək olsun, deyirəm.*

**Nuray ƏSGƏROVA**
***jurnalist***

---

# Jurnalistikanın təməli mətbuatdan başlayır

*Həyatı jurnalistikasız təsəvvür etmək mümkün deyil. Müasir dövrdə isə çoxsaylı texnoloji vasitələrin çoxluğu informasiya mənbələrinin sayını artırsa da, peşəkar jurnalistikaya daha çox ehtiyac duyulur. Çünki informasiya peşəkarların əlində olanda cəmiyyətə daha obyektiv çatdırılır. Bu mənada, jurnalist kadrların hazırlığı dövrün ən aktual məsələlərindən biridir. Regionun mötəbər ali təhsil müəssisələrindən olan Naxçıvan Dövlət Universiteti də bu istiqamətdə fəaliyyəti ilə seçilir. Belə ki, bu il universitetdə Jurnalistika ixtisasının fəaliyyətə başlamasının 20 ili tamam olur. Elə bu yazıda da cəmiyyətdə baş verən hadisələrə düzgün yanaşmağın, obyektiv, qərəzsiz olmağın yollarını öyrədən jurnalistika kafedrasının keçdiyi şərəfli yola nəzər salmaq istədik. Müsahibimiz Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyevadır.*

***– Şəhla xanım, Jurnalistika kafedrasının fəaliyyətə başlaması tarixinə nəzər saldıqda ilk illəri necə xatırlayırsınız?***

– Muxtar respublikanın jurnalist kadrlarla təmin olunması məqsədilə 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə universitetdə Jurnalistika ixtisası açılmış, 2002-ci ildə Jurnalistika və dünya ədəbiyyatı kafedrası yaradılmış, 2005-ci ildən etibarən isə Mətbuat tarixi və Radiotelejurnalistika ixtisasları üzrə magistr hazırlığına başlanmışdır. Jurnalistikanın ilk tələbələri, həqiqətən, müəllimlərin yaddaşında intellektli, savadlı, çalışqan məzunlar kimi yadda qalıblar. İlk illərdə fənlərin tədrisində müəyyən çətinliklərin olmasına, ixtisasla bağlı kitabların çatışmazlığına baxmayaraq, tələbələr dərslərə çox həvəslə yanaşırdılar. İxtisasın açıldığı ilk illərdə Bakı Dövlət Universitetinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cahangir Məmmədli bir neçə dəfə universitetimizə dəvət olunmuş, tələbələrlə seminar təşkil edilmişdir. Jurnalistika və media idarəçiliyi üzrə mütəxəssis Emin Hüseynzadə müəllim və tələbələr üçün "İnternet jurnalistika" mövzusunda seminar keçmiş, eyni zamanda tələbələr ASA-nın (Azerbaijan Study Academy) Azərbaycan Tədris Məktəbinin nitq mədəniyyəti və jurnalistika təlimçisi, tanınmış jurnalist İlhamə Novruzovanın Naxçıvanda keçdiyi təlimlərdə iştirak etmişlər. Bəxtiyar Sadiqov, İlham Tumas, Əflatun Amaşov, Rəşad Məcid və digər tanınmış jurnalistlərlə görüşlər tələbələrə jurnalistika sənətinə sevgi aşılamaq, peşə səriştəliliyi öyrətmək baxımından faydalı olmuşdu.

***– Siz jurnalistikanı necə sənət hesab edirsiniz fitri istedadın bəhrəsi, yoxsa peşə bilikləri sayəsində sonradan qazanılan?***

– Jurnalistika deyəndə, ilk növbədə, bir peşə olduğunu düşünürsən. Məlumdur ki, jurnalistin vəzifəsi cəmiyyəti operativ şəkildə informasiya ilə təmin etmək, xəbər çatdırmaq, məlumatlandırmaqdır. Jurnalistika praktik cəhətdən bir peşə sayılsa da, eyni zamanda həm də bir elmdir. Digər elm sahələrindən fərqli olaraq jurnalistikada təcrübə nəzəriyyəni üstələyir. Yəni nəzəriyyəni öyrənib təcrübəyə tətbiq edə bilməsən, jurnalist kimi çalışmaq qeyri-mümkündür.

***– Bu gün jurnalistikanın missiyası və rolu barədə müxtəlif mülahizələr söylənilir, bəs, sizcə, bu peşənin əsas missiyası nədən ibarətdir?***

– Jurnalistikanın əsas missiyası cəmiyyəti ictimai maraq kəsb edən, maraqlandıran informasiya ilə təmin etməkdir. Bu informasiyanı çatdırarkən həm də cəmiyyətdə ictimai rəy formalaşır. İctimai rəy məişətdən tutmuş dövlət idarəçiliyinə, siyasətədək bütün sahələrə öz təsirini göstərir. Cəmiyyətə xidmət edən jurnalist çiynində ictimai yük daşıyır. Buna görə də jurnalistika həm də həqiqətə xidmət etməlidir, yəni həqiqəti deməli, həqiqəti yazmalıdır. İnformasiya doğru, dürüst, dəqiq, qərəzsiz olmalıdır. Bundan başqa, bildiyimiz kimi jurnalistikanın üç əsas funksiyası da var ki, bunlara bilgiləndirmək, maarifləndirmək və əyləndirmək kimi fundamental keyfiyyətlər daxildir.

***– Hazırda gənclər arasında jurnalistikaya meyillilik kifayət qədərdir. Amma, sanki bəzilərini efirə çıxmaq, tanınmaq daha çox maraqlandırır. Bir müəllim kimi siz bunu necə qiymətləndirirsiniz?***




– Əslində, jurnalist tələbələrdə televiziya və radioya meyillilik elə ilk kurslarda hiss olunur. Bunun səbəblərindən biri tanınmaq, efirdə görünməkdirsə, digər səbəb teleradioda çalışmağın mətbuata nisbətən daha asan olmasını düşünmələridir. Düzdür, hər birimizin efirdə görünmək, məşhurlaşmaq kimi həvəsimiz ola bilər. Bu, çox normaldır. Amma televiziyaya meyil edən tələbələrin əksəriyyəti bunun məsuliyyətini dərindən dərk etmirlər. Çünki yaxşı müəllif, aparıcı olmaq üçün ciddi yaradıcılıq yolu keçməli, çalışmalısan. Məncə, jurnalistikanın təməli mətbuatdan başlayır. Mətbuat jurnalisti çox asanlıqla televiziya və ya radio sahəsində də uğur qazana bilər. Çünki televiziyada da, radioda da hər bir verilişin müəyyən planı, ssenarisi olur. Yaxşı ssenari olmadan maraqlı, keyfiyyətli veriliş hazırlamaq olmaz. Deməli, efirdə görünmək həvəsi hələ əsas şərt deyil, əsas şərt bilikli olmaqla yanaşı, yazı qabiliyyətinin, özünəməxsus üslub və yenilikçi fikirlərin, ideyaların olmasıdır.

***– Jurnalistika kafedrası 20 yaşını hansı hesabatla və ovqatla qeyd edir?***

– Naxçıvan Dövlət Universiteti muxtar respublikanın yüksək səviyyəli yerli jurnalist kadrları ilə təmin olunmasında fundamental baza rolunu oynayır. Bu 20 il ərzində 203 jurnalist məzunumuz olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri istedadlı və qabiliyyətli jurnalist məzunların iş yerləri ilə təmin olunmasına hər zaman xüsusi qayğı və həssaslıqla yanaşır. Jurnalist məzunlarımız bu gün Azərbaycanın, o cümlədən muxtar respublikanın ən müxtəlif kütləvi informasiya vasitələrində məsul vəzifələrdə çalışır, yüksək peşəkarlıq nümayiş etdirirlər. Hətta məzunlarımızdan biri, Kazım Kazımov Türkiyənin TV5 kanalında Xarici xəbərlər departamentinin populyar jurnalistlərindəndir. Ümumiyyətlə, muxtar respublikamızın, demək olar ki, bütün dövlət orqanlarında Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin işçiləri bizim məzunlarımızdır. Məzunlarımızın böyük əksəriyyəti Azərbaycanın tanınmış kütləvi informasiya vasitələrində, informasiya agentliklərində peşəkar jurnalist kimi fəaliyyət göstərirlər. Qürurverici haldır ki, məzunlarımızdan Səadət Əliyeva, Samir Tarverdiyev, Məmməd Babayev, Çinarə İsmayılova bu gün universitetimizdə jurnalistikanın tədrisi ilə uğurla məşğuldurlar.

***– İyirmi yaşlı Jurnalistika kafedrası yeni mərhələyə hansı planlarla qədəm qoyur?***

– Ali Məclis Sədrinin 15 fevral 2021-ci il tarixdə Universitet televiziyasının muxtar respublika üzrə yayımının təmin olunması barədə tapşırıqlarına uyğun olaraq bu istiqamətdə məqsədyönlü işlər aparılıb. Muxtar respublika rəhbərinin xüsusi diqqət və qayğısı, Jurnalistika ixtisasında dərs deyən müəllimlər, media mərkəzinin işçi heyəti və gənc jurnalistlərin xüsusi bacarıq və səyi nəticəsində Universitet televiziyası fevral ayının 24-dən etibarən muxtar respublikada yayımına başlayıb. Bu gün peşəkar jurnalistlər formalaşdırmaq, gələcək kadrların inkişafı və təcrübəsi üçün əlverişli şərait mövcuddur. Naxçıvan Dövlət Universitetinin televiziyası, "Nuhçıxan" radiosu, "Yeni fikir" qəzeti tələbə-jurnalistlərin yüksək səviyyədə yetişməsi üçün praktik baza rolunu oynayır. İnanırıq ki, muxtar respublikada daim yenilik, yaradıcılıq axtarışında olan, dövlətçilik və vətənpərvərlik ruhunda formalaşan, dünya jurnalistikasının ən son nailiyyətlərini mənimsəməklə inkişaf və inteqrasiya yolunu tutan gənc kadrlar milli jurnalistikanın inkişafına bundan sonra da öz sanballı töhfələrini verəcək.

***– Müsahibə üçün çox sağ olun.***

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

***Məqalələr "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

*Mütəxəssis sözü*

## İnformasiya ehtiyatlarından qanunsuz istifadə hüquqi məsuliyyət yaradır

***Müasir qloballaşmanın əhəmiyyətli dəyişikliklərindən hesab olunan rəqəmsal texnologiyaların insanların həyatına daxil olması, mühüm yeniliklərdəndir. Günümüzdə işlərin çevik və sürətli aparılmasında, eyni zamanda elm və təhsilin inkişafında rəqəmsal texnologiyaların əhəmiyyəti hər kəsə məlumdur. Ən önəmlisi isə hazırda pandemiya dövründə tətbiq olunan xüsusi karantin rejimində bir sıra ünsiyyət əlaqələrinin virtual müstəviyə keçməsi, informasiya ehtiyatlarını əhalinin sağlamlığının qorunmasında mühüm vasitələrdən birinə çevirir. Lakin təəssüflə qeyd etməliyik ki, hər kəsin rahatlığına müsbət təsir edən bu texnoloji yeniliklər bəzən kriminal niyyətlərin törədilməsində də bir vasitəyə çevrilə bilir. Hüquqazidd davranışların virtual müstəvidə həyata keçməsini daha asan hesab edən şəxslər bu imkandan istifadə etməklə dövlətin və cəmiyyətin mənafelərinə ciddi ziyan vururlar.***

Bəhs olunan mövzu informasiya texnologiyalarından sui-istifadə etməklə törədilən və məzmun baxımından şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına qəsd edən qanunazidd əməllərin yaratdığı məsuliyyətlə bağlıdır. Virtual məkanda sərhədlərin olmadığını nəzərə alsaq, hüquqazidd əməllərin miqyasını təsəvvür etmək elə də çətin olmaz.



Son zamanlar bank hesabları, eləcə də plastik kartlar ilə bağlı fırıldaqçılıq hallarına rast gəlinir. Fırıldaqçılar bir çox "metodlardan" istifadə etməklə vətəndaşların plastik kartlarını və ya ona dair məlumatları ələ keçirə bilərlər. Bunun üçün öncə kartla bağlı həyata keçirilən bütün əməliyyatlar gizli şəkildə öyrənilməyə çalışılır. Vətəndaşa "kömək" təklifi və ya onu gizlicə izləməklə, bankomatlara quraşdırılan xüsusi klaviatura təkrarlayan qurğunun köməyilə kart məlumatları oğurlana bilər. Plastik kart fiziki təmasla ələ keçirilə bilməsə də, ona dair məlumatların əldə edilməsi, hesabdan nağdsız yolla xərcləmə, həmçinin hesabda olan məbləğin başqa hesablara köçürülməsi mümkündür. Eləcə də mobil telefona gələn zəngə "bank xidmətləri" ilə bağlı verilən sualların cavablandırılması, onlayn alış-veriş zamanı, e-mail ünvana və ya sosial şəbəkə istifadəçilərinin hesablarına daxil olan naməlum linklərə daxil olunması ilə bank hesabları və ya plastik kart məlumatları ələ keçirilə bilir. Ona görə mütəxəssislər tövsiyə edir ki, kimliyindən asılı olmayaraq bank kartı səsli və ya yazılı şəkildə heç kimə göndərilməməlidir. Ən vacibi isə heç vaxt pin-kodu plastik kartın üzərinə yazmamalı və kartla yanaşı saxlanılmamalıdır.

İnternet istifadəçilərinin hüquqazidd davranışları bəzən cinayət tərkibi yaradan əməllərin törədilməsinə səbəb olur. Vətəndaşları aldatmaqla və ya onların etibarından sui-istifadə etməklə asan yolla qazanc əldə etməyə çalışan şəxslərin məsuliyyəti Cinayət Məcəlləsinin 178-ci maddəsinə əsasən müəyyən edilir. Çünki həmin maddənin tələbinə görə etibardan sui-istifadə etməklə və ya aldatmaq yolu ilə özgənin pul və əmlakının ələ keçirilməsi cinayət məsuliyyəti yaradır və sərt cəza tədbirdi ilə qadağan edilir. Belə ki, həmin əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə beş ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə on ildən on dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Günümüzün cəmiyyətdə narahatçılıq doğuran aktual məsələlərindən biri də saxta profil və ya hesablarla hüquqazidd davranışların baş verməsidir. Fərdi və ya bir çox başqa məlumatların da paylaşıldığı virtual mühitdə sosial şəbəkə istifadəçilərinə ziyan vurmaq kriminal niyyətli şəxslərin diqqətindən yayınmır. Belə ki, həmin məlumatlara yönələn təhdidlər bir çox hallarda saxta profil istifadəçiləri tərəfindən həyata keçirilir. Sosial şəbəkələrdən zərərli məqsədlər üçün istifadə edilməsinin səbəblərindən biri bu platformaların kütləvi istifadəçilərə malik olmasıdır. Zərərli məqsədlərini həyata keçirməyə çalışan istifadəçilər saxta hesablar yaradaraq zərərli kodların yerləşdirdiyi reklamları sosial şəbəkədə yaymaq, insanları manipulyasiya etmək, saxta xəbər yaymaq, kimisə gözdən salmaq və ya nüfuz qazandırmaq, böhtan atmaq və ya təhqir etməklə bir sıra bu kimi yeni təhdid növlərindən istifadə edirlər. Bəzi hallarda sosial şəbəkələrdə tanınmış şəxslərin adından yaradılan saxta profillərdən onların adından saxta paylaşımlar edilir və müxtəlif saytların ünvanları ödənişli reklam edilməklə paylaşılır. Həmin ünvanlara daxil olduqda isə reklam saytlarına yönəldilir və daxil olmaq üçün qeydiyyat və kart məlumatları istənilir. Bu yolla məlumatlarını daxil edən istifadəçilərin kart məlumatlarının oğurlanmasına cəhdlər olunur.

Yuxarıda qeyd edilən təhdid növlərindən, böhtan atma və ya təhqir etmə saxta hesablar vasitəsilə törədilərsə, həmin şəxslərin hərəkətləri Cinayət Məcəlləsinin 148-1-ci maddəsinin tərkibini yaratmış olur. Qeyri-etik davranışları ilə insanların şərəf və ləyaqətini alçaltmağa çalışan təqsirkar şəxslər saxta profil və ya hesabdan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atmağa və ya təhqir etməyə görə min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Saxta istifadəçi adlar, profil və ya hesablar dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür.

Artıq qeyd edildiyi kimi, elmi-texniki tərəqqi bəzi hallarda neqativ ictimai təzahürlərlə, xüsusilə bir sıra cinayətlərlə müşayiət olunur. Həmin cinayət növlərindən biri də kompüterlə törədilən kibercinayətdir.

Kibercinayətkarlıq dedikdə, kompüter sistemi və ya şəbəkəsinin köməyilə həmin sistem və ya şəbəkə çərçivəsində, yaxud kompüter sistemi və ya şəbəkəsi əleyhinə törədilə bilən istənilən cinayət başa düşülür. Cinayət Məcəlləsində Kibercinayətlər ayrıca fəsil olaraq (otuzuncu fəsil) nəzərdə tutulmuşdur. Kompüter sisteminə qanunsuz daxil olmağa, kompüter məlumatlarını qanunsuz ələ keçirməyə, kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxiləyə, kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsinə və kompüter məlumatlarının saxtalaşdırılmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin cinayət əməllərini törədən şəxslər müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə müəyyən müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Kompüter sistemləri, şəbəkə və proqramlarının, habelə internetin fəaliyyətilə əlaqədar meydana çıxan ictimai münasibətlərin effektli şəkildə tənzimlənməsi və tətbiqi olduqca mühüm əhəmiyyət kəsb edir.

Kibercinayətlərin qlobal təhlükəliliyini və ona qarşı effektiv mübarizəni təmin etmək üçün Azərbaycan Respublikası bir sıra mühüm beynəlxalq konvensiyalara qoşulmuşdur. Konvensiyalara qoşulan üzv dövlətlər müvafiq sazişlərə uyğun olaraq kompüter informasiyası sahəsində cinayətlərin səmərəli şəkildə qarşısının alınmasında, aşkar edilməsində və aradan qaldırılmasında əməkdaşlıq edirlər.

*Sonda onu da qeyd edək ki, vətəndaşların qanunla qorunan maraqlarının hər hansı qəsdlərdən qorunması və təqsirkarların məsuliyyətə cəlb olunaraq ədalət mühakiməsinə təhvil verilməsi hüquq-mühafizə orqanlarının daim diqqətindədir. Eyni zamanda bu məsələdə hər birimizin vətəndaş məsuliyyətinin olduğunu unutmamalıyıq.*

**Siyavuş BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***

*Yeni nəşrlər*

## Sözün sehrindən yaranan dəyərli mənbə

Söz ilahi bir güc, ilahi bir qüvvədir. Ancaq onu dərk edənlər, duyanlar, qüdrətinə inananlar onun mahiyyətini anlaya bilər. Hər kəsə nəsib olmur sözü ilə, qələmi ilə ədəbi məkana işıq sala bilmək. Çox az insanlar bu mühitdə özünü görə bilir. Ancaq bu gün diyarımızın da xoş günlərindən ilham alıb bir-birindən bənzərsiz yazıları ilə minlərlə insan qəlbini fəth edən söz adamlarımız az deyil. Onlara yaradıcılıq ruhunu bəxş edən, sözsüz ki, gündən-günə çiçəklənən doğma – Naxçıvanımızdır. Ana yurdumuzun əsrarəngiz gözəlliyindən ilham alıb onu sətirbəsətir səhifələrə çələngtək toxuyan söz adamlarımızdan biri də Naxçıvan Mətbuat Şurasının sədri, peşəkar jurnalist Rövşən Hüseynovdur. Ömrünü mətbuata həsr edən Rövşən müəllimin yaxın günlərdə işıq üzü görən "Çıraq işığında başlanan yüksəliş yolu" adlı kitabı da söz adamının muxtar respublikamızın gündən-günə çiçəklənməsindən, tərəqqi və inkişafından, güclü ordu quruculuğundan, tarix-mədəniyyət abidələrinə ikinci həyatın verilməsindən, milli dəyərlərin qorunması və təbliğindən, insanların səmərəli məşğulluğundan, ədəbi mühitlə yanaşı, digər bütün sahələrin inkişafından bəhs edən dəyərli bir mənbədir. Kitab jurnalistin ölkə və muxtar respublika mətbuatında dərc olunmuş, fotolarla müşayiət olunan publisist məqalələri, şeirləri, müsahibələri və yaradıcılıq nümunələri toplusudur. Redaktoru "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov olan kitabın ilk səhifəsinin ilk sətirləri böyük öndər Heydər Əliyevin ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planların yerinə yetirilsin"*** sözləri ilə başlayır. Həmçinin həmin səhifədə Prezident cənab İlham Əliyevin, Ali Məclisin Sədri cənab Vasif Talıbovun da Naxçıvanla bağlı dəyərli fikirləri yer alır. Kitabın ilk fəslində – "Arzu və istəklərimizin gerçəkləşdiyi məkan" adlı fəsildə dahi rəhbərə həsr edilən "Çıraq işığından başlanan yüksəliş yolu", "Böyük Novator" başlıqlı məqalələr diqqətçəkicidir. Burada dahi xilaskar Heydər Əliyevin xalqımızın və dövlətimizin xoşbəxt gələcəyi naminə misilsiz xidmətlərindən bəhs olunub. Həmin fəsildə yer alan "Xeyirxah alim, xeyirxah insan" adlı məqalədə isə görkəmli akademik Zərifə xanım Əliyevanın Azərbaycan səhiyyə elminin tərəqqisinə həsr etdiyi ömür yolu qələmə alınıb.




Kitabın "Sərbəst" adlı ikinci fəslində isə "Bir payız günü", "Yağan yağışlar, əsən küləklər bizi qorxutmur", "Onun ədəbi qəhrəmanı təbiətimiz idi", "Vətən nədir və ya qeyrət qalanın hekayəti" və neçə-neçə bir-birindən maraqlı məqalələr yer alır. Bu fəsildə qələmə alınan məqalələrdə hər tərəfdən blokadaya alınmış Naxçıvanın 90-cı illərin əvvəllərindəki çətin həyat şəraitindən, acı günlərindən, eyni zamanda mübarizliyindən, bütün çətinliklərə mərdliklə sinə gərmələrindən bəhs olunur. Həmçinin burada Naxçıvanın qədim yaşayış yerləri və memarlıq abidələri, əsrarəngiz təbiəti, görkəmli şəxsiyyətləri, iqtisadiyyatı, ictimai-siyasi mövqeyi haqqında qələmə alınan məqalələr Naxçıvanı dünyaya böyük vətənpərvərlik sevgisi ilə sevdirməyə, Naxçıvan həqiqətlərinin dünyaya düzgün çatdırmağa sövq edir.

Milli təəssübkeşlik və bəşəri duyğularla yazılmış kitabın "Milli dəyərlər" başlıqlı fəslində qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının hər zaman milli dəyərlərinə sadiqliyindən, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılmasından, milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsirindən və milli dövlətçiliyimizin möhkəmləndirilməsindəki xüsusi rolundan bəhs edir.

4 iyun 1993-cü ildə "Şərqin səhəri" qəzetində dərc olunan "Qarşıdurma orbitində qazancımız nə?" adlı müsahibədə cəmiyyətdə baş verən ictimai-siyasi və iqtisadi hadisələrlə bağlı iqtidar-müxalifət münasibətlərindən bəhs edilir.

Kitabı vərəqlədikcə diqqəti bir amil cəlb edir. Müəllif baş vermiş hadisələri təhlil süzgəcindən keçirərək, ən incə detallara toxunaraq oxucuya faktlarla çatdırır.

"Misralarda yaşayan və ucalan Naxçıvan"... Bu fəsil Rövşən Hüseynovun həssaslıqla qələmə aldığı bir-birindən mənalı, düşündürücü və maraqlı şeirlər toplusudur. "Vətən oğlu", "Yeni tarixim yazılır bu gün", "Naxçıvan dönübdür bir gülüstana", "Mərdlik qalası", "Şöhrətimdir Naxçıvan", "Zəfər günün mübarək!" – Vətənə sevgi, yurda bağlılıq hissi ilə qələmə alınan 30-a yaxın şeiri oxuduqca insanın qəlbində vətənpərvərlik hissləri coşub-daşır.

"Mahnılar" adlı son fəsildə isə şairin vətənpərvər ruhda qələmə aldığı "Vətən oğlu", "Sönməyən günəşim", "Zərifə həkim", "Üçrəngli bayrağım", "Xocalım", "Naxçıvanım" adlı şeirlər böyük həvəslə bəstələnən və səsləndirilən ifalar sırasındadır.

Qələmi, peşəkarlığı, səmimi, mehriban rəftarı ilə böyük hörmət bəslədiyimiz, Naxçıvanın mətbuat həyatında özünəməxsus rolu olan peşəkar jurnalist Rövşən Hüseynovu yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik edir, sözü sehrli qələmiylə misralara çevirən şair-publisistə daha yüksək yaradıcılıq uğurları diləyirik.

**✍ Gülcamal TAHİROVA**

## Maarifləndirici tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluqlarının təmin edilməsi, həmçinin onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsinə dair maarifləndirici seminar keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxış edərək bildirib ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluqlarının təmin edilməsi istiqamətində qanunvericiliyin tələblərinin icrasına xüsusi həssaslıqla yanaşılır, bu sahədə mütəmadi maarifləndirmə işləri aparılır. Nazir müavini əlavə edib ki, sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin edilməsi və əmək hüquqlarının qorunması sahəsində görülən işlərdən danışaraq, bu sahədə mövcud qanunvericilik aktlarının əhəmiyyətindən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Elmin Fərəcov, nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov və nazirlik yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsinin direktoru Yasin Əliyev çıxış edərək sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi qaydası, müvafiq kateqoriyadan olan şəxslərin əmək hüququ, onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsi haqqında danışıblar.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhəri İ.Həmzəyev küçəsi 6 ünvanında yaşamış Ramazanov Avdandil Hüseyn oğlunun adına olan evin 14 sentyabr 2011-ci il tarixli MH-0022330 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Hüseynov İlqar Mahmud oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Kosacan kənd sakini Məmiyev Hicran İsmayıl oğlunun adına verilmiş fərdi yaşayış evinin çıxarışı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 990